www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-02 (1828) 30 yanvar 2026-cı il



## 20 Yanvar: qanla yazılan tarix və azadlığa aparan yol

Azərbaycan Tibb Universitetinin rəhbərliyi Şəhidlər Xiyabanını ziyarət edib

səh. 2

### Qazaxıstanın tibb müəssisəsi ilə memorandum imzalanıb

səh. 2

### İlk dəfə "Clinical case" formatında imtahan keçirilib

səh. 5

### TEC-in növbəti iclasında 19 tələbə məruzələrlə çıxış edib

səh. 5




### Elmi nəticələrin praktik səhiyyəyə təsirinin artırılması günün tələbidir

Ötən il üçün elmi-tədqiqat fəaliyyətinin analitik hesabatı Elmi Şurada təqdim edilib

səh. 3

### Əczaçı yalnız aptekdə dərman satan deyil

*Baytarlıq əczaçılığı üzrə təhsil alanların diplomunda ixtisas kimi "əczaçı" yazılması ciddi uyğunsuzluqdur*

səh. 4

### Uşaqlar arasında yayılan virus: mütəxəssisdən xəbərdarlıq

*Professor Nailə Sultanova: İnfluenza A virusu uşaqlarda ciddi fəsadlara səbəb ola bilər*

səh. 6



### Qış imtahan sessiyası: şəffaflıq təmin olunur

Cari imtahan sessiyasında mikroqurğudan istifadə faktı qeydə alınıb

səh. 5



## Şəhidlər Xiyabanı ziyarət olunub

20 Yanvar faciəsinin 36-cı ildönümü ilə əlaqədar Azərbaycan Tibb Universitetinin rəhbərliyi Şəhidlər Xiyabanını ziyarət edib. Ziyarətdə universitetin rektoru Gəray Gəraybəyli, prorektorlar və digər rəhbər şəxslər iştirak ediblər.

Ziyarət zamanı 20 Yanvar şəhidlərinin xatirəsi dərin ehtiramla yad olunub, məzarları üzərinə gül dəstələri düzülüb və dualar oxunub.

## Qazaxıstanın tibb müəssisəsi ilə memorandum imzalanıb

**Rektor Gəray Gəraybəyli: Universitetimiz beynəlxalq əlaqələrə xüsusi önəm verir**



Azərbaycan Tibb Universiteti ilə Qazaxıstan Respublikasının "Əmək Gigiyenası və Peşə Xəstəlikləri Milli Mərkəzi" Qeyri-kommersiya Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

Bu münasibətlə Mərkəzin rəhbərliyi ATU-da olub və universitetin rektoru, professor Gəray Gəraybəyli ilə görüşüb. Görüş zamanı rektor G.Gəraybəyli son illər universitetimizdə beynəlxalq əlaqələrin genişləndirilməsinə, xüsusilə qonşu və qardaş ölkələrin ali təhsil və tibb müəssisələri ilə əməkdaşlığın inkişafına xüsusi önəm verildiyini qeyd edib. Bildirib ki, Azərbaycan və Qazaxıstan arasında mövcud olan dostluq və qardaşlıq münasibətləri dövlət səviyyəsində uğurla inkişaf edir.

Rektor, həmçinin ATU-nun üç tədris proqramının Qazaxıstan Respublikasının Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyi (IAAR) tərəfindən tanındığını diqqətə çatdırıb. Professor G.Gəraybəyli Qazaxıstana işgüzar səfərləri çərçivəsində əldə olunan təcrübədən, eləcə də bu ölkənin tibb və elm sahəsindəki nailiyyətlərindən bəhs edib, ATU-da tədris olunan ixtisaslar, təhsil pilləri və son illərdə tətbiq edilən yeniliklər barədə məlumat verib.

"Əmək Gigiyenası və Peşə Xəstəlikləri Milli Mərkəzi"nin İdarə Heyətinin sədri, tibb elmləri doktoru, professor Yertay Otarov rəhbərlik etdiyi qurumun fəaliyyəti və Qazaxıstanda tibb təhsili sahəsində həyata keçirilən innovasiyalar haqqında ətraflı məlumat verib. O, imzalanan memorandumun hər iki qurum üçün faydalı və perspektivli əməkdaşlığa zəmin yaradacağını vurğulayıb.

Sonra rektor, professor Gəray Gəraybəyli və professor Yertay Otarov tərəfindən əməkdaşlıq haqqında memorandum imzalanıb.

Görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Şəhla Balayeva, İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Günel Aslanova, həmçinin Mərkəzin elm üzrə direktor müavini Aleksey Alekseyev iştirak ediblər.

# 20 Yanvar: qanla yazılan tarix və azadlığa aparan yol

**Hüzn və qürurla xatırladığımız hadisələrin 36-cı ildönümü münasibətilə anım tədbiri keçirilib**



20 Yanvar hadisələrinin 36-cı ildönümü münasibətilə Azərbaycan Tibb Universitetində anım tədbiri təşkil olunub.

Mərasimdə çıxış edən rektor, professor Gəray Gəraybəyli 1990-cı ilin 20 yanvar gününün Azərbaycanın müasir tarixinə ən faciəli və ən şərəfli səhifələrdən biri kimi daxil olduğunu qeyd edib: "Azərbaycan xalqının tarixində elə hadisələr var ki, milli yaddaşımızda daim qalacaq. Bu tarixlərdən biri də 20 Yanvardır. Bu tarix milli müstəqillik, xalqımızın azadlıq uğrunda mübarizəsinin rəmzinə çevrilib. Ona görə ki, belə hadisələr insanların milli şüurunu dəyişdirir. Həmin gecə televiziya işləməsə də, insanlar daxili çağırışla küçələrə çıxmışdılar. 20 Yanvar şəhidlərinin dəfn günü milli şüurumunun dəyişmə nöqtəsi idi".

Hər il 20 Yanvar şəhidlərinin xatirəsini dərin hüznlə yad etdiyimizi deyən rektor, hazırda fərqli əhvalda olduğumuzu da vurğulayıb: "Artıq şəhidlərimizin qanı yerdə qalmayıb. Biz 20 Yanvar faciəsinə Qarabağ prosesindən kənarda yanaşa bilmərik. Bu kontekstdən deyə bilərik ki, müstəqillik uğrunda şəhid olan bütün qəhrəmanların qanı yerdə qalmadı. Bütün dünyaya sübut etdik ki, Azərbaycan xalqı böyük və əzmkar xalqdır".

Professor Gəray Gəraybəyli bu gün gənclərimizin Azərbaycanın hansı sınaqlardan keçərək müstəqil dövlətə çevrildiyini bilməsinin son dərəcə vacibliyinə də diqqət çəkib. Qeyd edib ki, bugünkü sabitlik və beynəlxalq nüfuzumuz asanlıqla əldə edilməyib, bunun arxasında şəhidlərin qanı və xalqın iradəsi dayanır: "Ümumiyyətlə, mən hər zaman təşəbbüskar olmuşam ki, belə tədbirlərdə daha çox gənclər iştirak etsin. Məhz gənclərin Azərbaycanın son onilliklərdə yaşadığı tarixi hadisələri bilməsi çox vacibdır. Bugünkü reallığı görəndə, sizə elə gələ bilər ki, hər zaman belə olub. Əslində isə Azərbaycan xalqı bu günə qədər ağır sınaqlardan keçib. Ulu Öndərimiz Heydər Əliyevin siyasətini uğurla davam etdirən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Qarabağ Zəfərindən sonra Azərbaycan bütün dünyada müstəqilliyini müdafiə edən və son 200 ildə ilk dəfə itirilmiş torpaqlarımızı öz gücü ilə qaytara bilən bir ölkə kimi tanındı".

Rektorun çıxışından sonra 20 Yanvar hadisələrinə dair videoçarx nümayiş etdirilib.

Bundan sonra çıxış edən Ümumi cərrahiyyə kafedrasının müdiri, professor Elçin Ağayev 20 Yanvarı xalqımızın həm kədər, həm də şərəf salnaməsi adlandırıb. Azərbaycan xalqının həmin gecə öz milli azadlıq ruhunun sarsılmaz olduğunu sübut etdiyini söyləyib. O, Ulu Öndər Heydər Əliyevin Moskvada etdiyi tarixi çıxışı xatırladaraq, bu addımın xalqın haqq səsini dünyaya çatdırmaq baxımından böyük siyasi cəsarət nümunəsi olduğunu bildirib.

İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev xalqımıza qarşı yönələn bu dəhşətli cinayətin, eyni zamanda tarixi yaddaşımıza dərin hüzn və milli qürur günü kimi həkk olunan Qanlı Yanvar gecəsi öz canlarından keçənlərin heç zaman unudulmayacağını, onların şücaət və qəhrəmanlıqlarının gənclərə və böyüməkdə olan nəsillərə örnək olacağını deyib.

Anım tədbirində çıxış edən II Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Nigar Babayeva bildirib ki, bugünkü Azərbaycan gəncliyi şəhidlərin qanı bahasına əldə olunmuş müstəqilliyi qorumağı və ölkəmizi dünyaya layiqincə tanıtmağı özünə borc bilməlidir. 20 Yanvar faciəsi göstərdi ki, Azərbaycan xalqı zorakılıq qarşısında geri çəkilən deyil. Bu faciə, əslində, müstəqilliyə aparan yolun başlanğıcı oldu. Həmin gecə tökülən qanlar bu gün dalğalanan üçrəngli bayrağımızın təməlindədir. Zaman keçəcək, nəsillər dəyişəcək. Amma 20 Yanvar şəhidlərinin xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq. Çünki onlar azadlıq ideyasını canları bahasına qorudular və bu ideya artıq müstəqil, güclü və qalib Azərbaycanın dövlətçilik tarixində aparıcı yer tutur.

20 Yanvar faciəsi Azərbaycan xalqının XX əsrdə yaşadığı ən ağır, eyni zamanda ən şərəfli tarixi sınaqlardan biridir. 1990-cı ilin həmin qanlı gecəsində sovet ordusunun Bakıya yeridilməsi yüzlərlə günahsız insanın həyatına son qoydu. Lakin bu faciə Azərbaycan xalqının azadlıq iradəsini sındıra bilmədi – əksinə, milli mübarizəni daha da gücləndirdi.

# Şəhidlərin yolu gələcək nəsillər üçün nümunəyə çevrildi

**Mübariz Allahverdiyev: İlk saatlarda Təcili Tibbi Yardım Xəstəxanasına 108 ağır yaralı və 29 meyit gətirilmişdi**

**20 Yanvar faciəsindən əvvəl ölkəmizdə gərgin vəziyyət yaranmışdı. Ermənilər Qarabağı Ermənistana birləşdirmək istəyirdilər. Sovet hakimiyyəti də onları dəstəkləyirdi. Məlumdur ki, müxtəlif dövrlərdə Azərbaycan xalqının soyqırımına məruz qalmasında Rusiya imperiyası böyük rol oynayıb və ermənilərin əli ilə qırğınlar törədilib.**

Bakıda ermənilərin Qarabağın Ermənistana birləşdirilməsi xülyalarına qarşı dinc mitinqlər keçirilirdi. Silahsız idik, ov tüfəngləri də əlimizdən alınmışdı. Erməniləri isə silahlandırırdılar. Azadlıq meydanında keçirilən mitinqlərə mən də qoşulurdum. Əslən Xocalıdan idim və aksiyalarda əlimdə üzərində "Xocalı sizinlədir" yazısı olan lövhə tutaraq iştirak edirdim. Heç kimə hücum etmirdik, hakimiyyətə müraciət edib, bu vəziyyətin qarşısını almağa səsləyirdik. Sovet hakimiyyəti isə ermənilərlə birləşərək bu durumdan faydalandı. Guya biz silahla kiməsə hücum etmişik, guya hakimiyyətə qarşı çıxırıq. Məhz belə dövrdə - 1990-cı ilin yanvarında onlar tək Bakıda deyil, Neftçala və Lənkəranda da qətliamlar törətdilər.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Birinci Qarabağ müharibəsi veteranı, Azərbaycan Tibb Universitetinin professoru, tibb elmləri doktoru Mübariz Allahverdiyev deyib.

O həmin məşum gecəni xatırlayaraq bildirib ki, yanvarın 19-da da müxtəlif ərazilərdə etiraz aksiyaları davam edirdi: "Həmin gün işıqlar söndürüldü, Azərbaycan Televiziyasının enerji bloku partladıldı, verilişlərin yayımı dayandırıldı. Hər yerlə əlaqəmiz kəsilmişdi. Mən Bakının mərkəzində deyil, Əhmədli qəsəbəsində yaşayırdım. Biz də öz ərazimizə yaxın yerdə, Ukrayna dairəsi tərəfdə aksiya edirdik. Hadisə gecəsi mənə tanışlarımdan biri zəng edərək gərginliyin artdığını, sovet ordusunun ağır texnika ilə Bakıya hücum etdiyini dedi. O günlərdə içərisində ermənilərin çox olduğu və amansızlığı ilə tanınan sovet ordusunun "Alfa" qrupu Bakıda və digər rayonlarda ağlasığmaz vəhşilik törətdi. Nəqliyyat olmadığından gecə ilə piyada indiki Tədris Cərrahiyyə Klinikasının ərazisinə gəldim. Yolda şahidi olduqlarım məni dəhşətə gətirdi. Rəşid Behbudov küçəsindən Bakıxanov küçəsinə qalxan yerdə içərisində sərnişinlər olan avtobus güllələnmişdi. Xəstəxanada gördüklərim də məni bir başqa cür sarsıtdı. Xeyli yaralı və şəhid var idi. Hadisənin ilk saatlarının olmasına baxmayaraq, təkcə Təcili Tibbi Yardım Xəstəxanasına 108 ağır yaralı və 29 meyit gətirilmişdi. Yaralıları xilas edə bilməsəydik, ölənlərin sayı artacaqdı. Tələbə yataqxanalarına müraciət etdik ki, yaralılara tibbi yardım üçün kömək və qan lazımdır. Bizim fədakar cərrahlar və vətənpərvər gənclər olmasaydı, ölənlərin sayı çox olacaqdı".




M.Allahverdiyevin sözlərinə görə, yaralılar çox olduğu üçün onları palatalardan savayı, dəhlizə, pilləkənlərə də yerləşdiribmişlər: "Ağır yaralılara ilk növbədə yardım edilirdi. Digərlərinə isə ilk tibbi yardım göstərilirdi ki, qanitirmədən dünyasını dəyişməsinlər. Tələbələrin, gənclərin qanverməsi nəticəsində birbaşa qanköçürmə oldu və ölənlərin sayının artmasının qarşısı alındı. Universitetin cərrahları hadisədən xəbər tutan kimi gecə ilə xəstəxanalara gəlmişdilər. İşıq sistemi tamamilə sıradan çıxarıldığından, yaralıları şam, çıraq işığında əməliyyat edirdilər. Onlar da həmin gecənin qəhrəmanlarıdır. Təcili yardım maşınları da çatmırdı. Hətta ATU-nun bir təcili yardım maşınını da yaralını xəstəxanaya gətirərkən güllebaran etmişdilər. Tələbələr yaralılara ilk yardım göstərilməsində, onların yaralarının sarınmasında, ağır vəziyyətdə olanların seçilib əməliyyat otağına aparılmasında, hətta cərrahi əməliyyat olunmasında iştirak edirdilər".

Professor diqqətə çatdırıb ki, həmin dövrdə stress, qorxu, həyəcan keçirənlər də az olmayıb. Yaşlılar, stress keçirənlər ağır vəziyyətdə terapevtik xəstəxanalara, nevroloji şöbələrə çatdırılırdı. Onların üzərində uzunmüddətli müalicə aparıldı. Həyatını itirənlər də var idi.

Şəhidlərin dəfn günü yanvarın 22-nə təsadüf etdi. Azərbaycan xalqı öz şəhidlərini görünməmiş izdihamla yola saldı. Mübariz Allahverdiyev qeyd edib ki, o gecə baş verənlər unudulmayacaq dərəcədə yaddaşımıza, ruhumuza hopub. Şəhidlərin yolu gələcək nəsillər üçün nümunəyə çevrildi. Uzun illər işğalda qalan torpaqlarımızı azad edən, suverenliyimizi bərpa edən gənclər də məhz bu cür qəhrəmanlardan ilham aldılar. Xalqımız, dövlətimiz var olduqca müstəqilliyimizin memarları unudulmayacaq.

# Elmi nəticələrin praktik səhiyyəyə təsirinin artırılması günün tələbidir

## Ötən il üçün elmi-tədqiqat fəaliyyətinin analitik hesabatı Elmi Şurada təqdim edilib

**Yanvarın 27-də Böyük Elmi Şuranın növbəti iclası keçirilib. İclası açıq elan edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdırıb. Sonra universitetin Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultanın "Azərbaycan Tibb Universitetinin 2025-ci il üçün elmi-tədqiqat fəaliyyətinin illik analitik hesabatı" dinlənilib.**

Müasir qlobal akademik mühitdə elmi tədqiqatların aparıcı universitetlərin strateji inkişafını müəyyən edən əsas prioritetlərdən biri olduğunu söyləyən prorektor bildirib ki, dövlətimiz elm sahəsinin inkişafını əsas istiqamət kimi müəyyənləşdirib və bu məqsədlə bir sıra konkret mexanizmlər formalaşdırıb. Belə ki, dövlət büdcəsi hesabına elmi-tədqiqat institutlarının maliyyələşdirilməsi təmin olunur, Prezident yanında Elmin İnkişafı Fondu vasitəsilə fundamental və tətbiqi tədqiqat layihələrinə qrantlar ayrılır. Eyni zamanda gənc alimlər və tədqiqatçılar üçün Prezident mükafatları və fərdi təqaüdlər təsis edilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu ilin yanvar ayında yerli televiziya kanallarına verdiyi müsahibəni xatırladan məruzəçi, ölkə başçısının "elmin inkişafı gənc nəsillərin düşüncə tərzini formalaşdırmaq və Azərbaycanın dünya miqyasında rəqabət qabiliyyətini artırmaq baxımından prioritetdir" fikirlərinin universitetimiz üçün də bir fəaliyyət proqramı olduğunu vurğulayıb: "Bu baxımdan universitetimizdə həyata keçirilən elmi fəaliyyətin illik hesabatı ölkəmizin elmi potensialının güclənməsinə və beynəlxalq səviyyədə tanınmasına verdiyimiz töhfədir".

Hesabatda 2025-ci təqvim ili ərzində universitetimizdə həyata keçirilmiş elmi-tədqiqat fəaliyyətinin əsas nəticələri, strateji prioritetlər üzrə əldə olunmuş nailiyyətlər, mövcud problemlər və gələcək inkişaf istiqamətləri sistemli şəkildə öz əksini tapıb.

M.Sultan qeyd edib ki, ATU-nun strateji baxışı regional və beynəlxalq səviyyədə tanınmaq, yüksək impakt kateqoriyalı elmi tədqiqatlar aparmaq və aparıcı elmi-tədqiqat universiteti statusuna yiyələnməkdir: "Əsas strateji məqsədlərimiz elmi-tədqiqat infrastrukturunun modernləşdirilməsi, elmi kadr potensialının gücləndirilməsi və insan resurslarının inkişafıdır. Tədqiqat mədəniyyətinin və akademik mühitin formalaşdırılması, beynəlxalq elmi əməkdaşlıqların və akademik tərəfdaşlıqların genişləndirilməsi ilə yanaşı, qrant fəaliyyəti və maliyyə dayanıqlığının artırılması, elmi nəticələrin tanıdılması, kommersiyalaşdırılması və praktik tətbiqi də əsas hədəflərimizdəndir.

Öncədən qeyd etmək istəyirik ki, hesabatda təqdim olunan elmi nəticələr milli elmi siyasətin prioritetləri və ATU-nun təsdiq olunmuş elmi strategiyasına uyğun hazırlanıb, universitetdə fundamental və tətbiqi tədqiqatların sistemli inkişafını, elmi keyfiyyətin yüksəldilməsini və beynəlxalq elmi mühitə inteqrasiyanı təmin etməyə yönəlib. Universitetimizin elmi strateji inkişafına dair 2025-ci il hesabat dövründə "Elm" strateji prioriteti üzrə fəaliyyət planında nəzərdə tutulan istiqamətlərin böyük əksəriyyəti uğurla icra edilib. Bu barədə Rektoryanı şuranın son iclasında da geniş müzakirə keçirilib. Nəticələr universitetimizdə elmi fəaliyyətin təsadüfi deyil, strateji planlaşdırma əsasında həyata keçirildiyini təsdiqləyir".

ATU-nun Elmi Şurasının 2025-ci il dekabr tarixli qərarına əsasən, Elmi Tədqiqatların İdarə Olunması Departamentinin strukturunda Startap və kommersiyalaşma şöbəsinin yaradılmasını elmi nəticələrin innovasiya və kommersiyalaşma müstəvisinə daşınması istiqamətində mühüm addım kimi qiymətləndirən prorektor, həmin qərar çərçivəsində Validasiya Komissiyasının təsis edilməsinin də elmi fəaliyyətin keyfiyyətinin yüksəldilməsi, tədqiqat nəticələrinin etibarlılığının və metodoloji əsaslılığının təmin olunması baxımından xüsusi əhəmiyyət daşıdığını deyib: "Bu institusional yeniliklərin reallaşdırılmasına dəstək göstərdiyinə görə hörmətli rektorumuza və Elmi Şuranın üzvlərinə dərin təşəkkürümüzü bildiririk. Hesabat dövründə elmi fəaliyyətin təşkili Elmi işlər üzrə prorektorluğun koordinasiyası altında müvafiq struktur bölmələrin funksional səlahiyyətlərinə uyğun şəkildə həyata keçirilib. Fakültələr, kafedralar, laboratoriyalar və ixtisaslaşmış struktur bölmələr arasında şaquli və üfüqi əlaqələndirmə mexanizmləri tətbiq edilib, dövri iclaslar və hesabat mexanizmləri vasitəsilə fəaliyyətlərin uzlaşdırılması təmin olunub. Doktorantura və dissertantura şöbəsi, Beynəlxalq əlaqələr şöbəsi, İnnovasiya şöbəsi, İnformasiya Texnologiyaları Departamenti, Tədris Departamenti və Mətbuat Xidməti ilə formalaşdırılmış institusional əməkdaşlıq çərçivəsində icra olunan layihələr universitetin elmi strategiyasının əsas istiqamətlərinin reallaşdırılmasına əhəmiyyətli dəstək göstərib".

Hesabat məruzəsində universitetin elmi potensial və kadr hazırlığı, elmi-tədqiqat fəaliyyəti, elmi nəticələr və nəşrlər, qrant və layihə fəaliyyəti, beynəlxalq elmi mövqelənmə və əməkdaşlıq, tələbə elmi fəaliyyəti, elmi fəaliyyətin normativ, etik və metodoloji təminatı, elmi infrastruktur və tədqiqat mühiti, ATU-nun təsisçisi olduğu jurnallar, universitet kitabxanasının fəaliyyəti, elmi-tədqiqat laboratoriyalarının fəaliyyəti, elmi infrastrukturun və resursların gücləndirilməsi, elmi fəaliyyətin təşkili və monitorinq, insan resurslarının inkişafı və stimullaşdırılması məsələlərinə də geniş yer ayrılıb.

Eyni zamanda mühüm statistik məlumatlar, universitetin elmi göstəriciləri müxtəlif slaydlar və cədvəllər vasitəsi ilə şura üzvlərinin diqqətinə çatdırılıb.

Çıxışının sonunda qazanılan uğurların universitet rəhbərliyinin uzaqgörən və strateji yanaşmasının, professor-müəllim heyətinin yüksək akademik fədakarlıq və peşəkarlığının, tədqiqatçıların yorulmaz elmi təşəbbüskarlığının, struktur bölmələrinin məqsədyönlü və məsuliyyətli fəaliyyətinin, eləcə də tələbələrin fəal iştirakının vəhdəti nəticəsində mümkün olduğunu diqqətə çatdıran prorektor bildirib ki, qarşıdakı mərhələdə əsas məqsədimiz elmi nəticələrin praktik səhiyyə sisteminə real təsirinin artırılması, beynəlxalq səviyyədə rəqabət qabiliyyətli tədqiqat mühitinin formalaşdırılması və elmin cəmiyyət üçün yaratdığı dəyərin daha aydın və ölçülə bilən şəkildə nümayiş etdirilməsidir.

Məruzə ətrafında çıxış edən Beynəlxalq əlaqələr üzrə prorektor, Elmi Araşdırmalar Mərkəzinin (EAM) direktoru, dosent Orxan İsayev ölkədə elm sahəsində mövcud vəziyyət, qarşıda duran vəzifələr və perspektivlər barədə səsləndirilən fikirləri müsbət qiymətləndirib. Bildirib ki, EAM xətti ilə müxtəlif beynəlxalq və yerli jurnallarda elmi məqalələr və tezislər dərc olunub. Məqalələrin bir hissəsi nüfuzlu beynəlxalq bazalara daxil olub və əksəriyyəti yüksək elmi səviyyəni nümayiş etdirib. Bu nailiyyətlər təcrübəli alimlərin cəlb olunması və stimullaşdırıcı mexanizmlərin tətbiqi sayəsində mümkün olub.

Rezident doktorantlar və dissertantların elmi fəaliyyəti də diqqət mərkəzində saxlanılıb. Mərkəzə həm daxili, həm də digər ali təhsil müəssisələrindən doktorantlar və dissertantlar cəlb olunub. Lakin gənc kadrlarla elmi dərəcəyə malik əməkdaşların nisbəti bir sıra çağırışlar yaradır. Bu baxımdan, gənc yaşda dissertasiya müdafiə edənlər üçün əlavə stimullaşdırıcı mexanizmlərin tətbiqi təklif olunub.

Laboratoriya fəaliyyətinin təşkili məsələsinə toxunan O.İsayev qeyd edib ki, laborator avadanlıqların vahid mərkəzdə cəmləşdirilməsi və bütün kafedraların bu mərkəzdən növbəli şəkildə istifadə etməsi həm maliyyə qənaəti, həm də sistemli işin təminatı baxımından effektiv olardı. Texniklərin və laborator mütəxəssislərin daimi fəaliyyəti işlərin keyfiyyətini daha da artıracaq.






Məruzə ətrafında çıxış edən I Daxili xəstəliklər kafedrasının müdiri, professor Vəsadət Əzizov EAM-ın fəaliyyətini dəstəklədiyini bildirib və kafedranın beynəlxalq və yerli jurnallarda dərc olunan məqalələr, elmi konfranslarda iştirak və hazırlanmış klinik protokollarda təmsil olunma nəticəsində müsbət dinamika göstərdiyini vurğulayıb. Eyni zamanda dissertasiya işlərinin vəziyyəti və davam edən elmi müdafiələr barədə məlumat verib.

II Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Elçin Ağayev çıxışında universitetdə və ölkədə aparılan islahatları yüksək qiymətləndirib və elmi fəaliyyətin daha sistemli təşkili ilə bağlı təklifləri səsləndirib. O, Tələbə Elmi Cəmiyyətinin fəaliyyətinin gücləndirilməsinin, klinik bazalardan səmərəli istifadənin və elmi şuraların işində ilkin mərhələdə daha ciddi nəzarətin vacibliyini vurğulayıb.

Professor dissertasiya işlərinin ilkin mərhələdə ciddi nəzarətlə qiymətləndirilməsinin və problemli işlərin son mərhələyə keçmədən qaytarılmasının vacibliyini qeyd edib. Bundan əlavə, klinikaların fəaliyyətində əməkdaşların məsuliyyəti və səmərəli işinə diqqət çəkib, həssas qruplara göstərilən dəstəyin universitetin ictimai-sosial mövqeyini nümayiş etdirdiyini vurğulayıb.

Məruzə və çıxışlarda səslənən fikirlərə münasibət bildirən rektor qeyd edib ki, elmi fəaliyyət universitetin əsas strateji prioritetlərindən biridir və son illər ərzində bu sahədə nəzərəçarpan müsbət dinamika müşahidə olunur. Tədris ilinin əvvəlində keçirilən müvafiq müzakirələrdə də elmi fəaliyyətin ali təhsil müəssisələri üçün strateji əhəmiyyət daşıdığı xüsusi vurğulanıb.

Bununla yanaşı, professor G.Gəraybəyli bəzi istiqamətlər üzrə elmi işlərin arzuolunan səviyyədə olmadığını bildirərək, universitetin yalnız tədrislə məhdudlaşa bilməyəcəyini diqqətə çatdırıb. Elmi fəaliyyət ali təhsilin əsas funksiyalarından biri kimi qiymətləndirilib və müəllim heyətinin bu sahədə məsuliyyətinin artırılmasının vacibliyi qeyd olunub.

Rektor çıxışında müasir dövrdə müəllim modelinin dəyişdiyini vurğulayaraq, müəllimin bilik və təcrübə baxımından daim yenilənməli, xüsusilə praktiki məşğələlərdə tələbələrdən öndə olmalı olduğunu bildirib. Bu baxımdan elmi fəaliyyətin universitet həyatının ayrılmaz tərkib hissəsi olduğu qeyd edilib.

Müzakirələr zamanı kadr hazırlığı məsələsi əsas problemlərdən biri kimi ön plana çəkilib. Rektor qeyd edib ki, kadrların fəaliyyəti konkret və ölçülə bilən göstəricilər əsasında qiymətləndirilməli, elmi nəticələr və müdafiə perspektivləri əsas meyarlar kimi götürülməlidir. Bu sahədə kafedra müdirlərinin məsuliyyətinin artırılması xüsusi vurğulanıb.

Dissertasiya işləri və elmi şuraların fəaliyyəti ilə bağlı bildirilib ki, son dövrdə sistemləşdirmə tədbirləri gücləndirilib, lakin sənədlərin normativ tələblərə tam uyğun hazırlanmasına nəzarət daha da sərtləşdirilməlidir. İlkin mərhələdə aparılan ciddi nəzarətin sonradan yaranan problemlərin qarşısını aldığı diqqətə çatdırılıb.

Yekunda rektor pedaqoji və elmi fəaliyyət sahəsində daha məsuliyyətli və şəffaf yanaşmanın vacibliyini qeyd edərək, yaxın dövrdə işə düşəcək yeni mexanizmlərin tədris və elmi fəaliyyətin keyfiyyətinin yüksəldilməsinə xidmət edəcəyini bildirib.

Hesabat məruzəsinə dair müzakirələr bitdikdən sonra digər məsələlərə baxılıb. İclasda universitetin Tədris Terapevtik Klinikasına maliyyə yardımının göstərilməsi, ATU-nun ingilis dili bölmələrində aktiv dərs aparan, universitet tərəfindən təşkil edilmiş kurslarda B2 səviyyəsi göstərən, habelə Dövlət İmtahan Mərkəzində xarici dil üzrə doktoranturaya qəbul imtahanında keçid balı (30) toplayan professor-müəllim heyətinə differensial əməkhaqqının tətbiq olunması barədə qərarlar qəbul edilib.

Eyni zamanda, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən göndərilmiş müxtəlif klinik protokolların, metodik vəsait və tövsiyələrin təsdiqi barədə razılıq verilib.

Böyük Elmi Şura dərslik, dərs vəsaitləri və tədris proqramlarının nəşri, habelə elmi adların verilməsi məsələlərini həll etməklə öz işini yekunlaşdırıb.

**Aytac ƏSƏDOVA**

# ATU-nun stendi böyük maraqla qarşılanıb



AMEA Rəyasət Heyətinin iclasında Biologiya və Tibb Elmləri Bölməsinin 2025-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat dinlənilib. Hesabatı AMEA-nın vitse-prezidenti, bölmənin Elmi Şurasının sədri, akademik İradə Hüseynova təqdim edib.
Bildirilib ki, hesabat ilində biologiya, tibb, aqrar və ekologiya elmləri sahələri üzrə genişmiqyaslı tədqiqatlar aparılıb və əldə olunan elmi nəticələrdən ən mühüm 37-si seçilib. Bölmənin əhatə etdiyi institutlarda və tibb yönümlü elmi müəssisələrdə yüzlərlə mövzu və mərhələ üzrə araşdırmalar həyata keçirilib, onların əhəmiyyətli hissəsi tamamlanıb. Hesabat dövründə minlərlə elmi əsər, o cümlədən kitablar, monoqrafiyalar, məqalə və tezislər nəşr olunub, bu əsərlərə minlərlə istinad edilib. Eyni zamanda biologiya və tibb elmləri sahəsində çalışan bir sıra azərbaycanlı alimlərin Stenford Universitetinin yüksək reytinq siyahısına daxil edildiyi vurğulanıb. Məruzədə beynəlxalq əməkdaşlıq, kadr hazırlığı, patentlər, qrantlar və elmlə təhsilin inteqrasiyası məsələlərinə də toxunulub.
İclas çərçivəsində təşkil olunan sərgidə elmi-tədqiqat müəssisələrinin fəaliyyətini əks etdirən materiallar nümayiş olunub. Sərgidə Azərbaycan Tibb Universitetinin stendi xüsusi diqqət çəkib. Universitetin elmi nailiyyətləri, tədris və tədqiqat potensialı iştirakçılara təqdim olunub və böyük maraqla qarşılanıb.

# İctimai səhiyyə sahəsində əməkdaşlıq perspektivləri müzakirə olunub




İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında ictimai səhiyyə sahəsində beynəlxalq əməkdaşlığın perspektivlərinə həsr olunmuş görüş keçirilib.
Görüşdə Amerika Birləşmiş Ştatlarının Nevada Universitetinin İctimai Səhiyyə Məktəbinin dekanı, professor Müge Akpınar, ÜST-nin Səhiyyə siyasəti üzrə məsləhətçisi İbrahim Durak, İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, t.e.d., dosent Yaqut Hacıyeva, kafedranın dosenti, fakültə Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri Fərəh Baxışlı və kafedranın digər əməkdaşları iştirak ediblər.
Görüş zamanı ictimai səhiyyə sahəsində əməkdaşlıq imkanları, müasir ictimai sağlamlıq problemləri, elmi tədqiqatlara müasir yanaşmalar və tədris proqramlarının müqayisəli müzakirəsi aparılıb. Eyni zamanda səhiyyə sistemində təhsil və idarəetmənin rolu diqqət mərkəzində olub.
Tədbirdə akademik təcrübə mübadiləsinin genişləndirilməsi, bakalavr və magistr tələbələrinin tədqiqat bacarıqlarının inkişafı, eləcə də ictimai səhiyyə mütəxəssislərinin hazırlanmasında innovativ və fənlərarası yanaşmaların tətbiqi imkanları vurğulanıb.
Görüşün sonunda tərəflər elmi-tədqiqat və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını bildiriblər.

**Universitetimizin Əczaçılıq fakültəsi ölkədə bu sahədə aparıcı ixtisas müəssisəsi olmaqla yanaşı, həm kadr hazırlığı, həm də beynəlxalq tələbə cəlbediciliyi baxımından xüsusi rola malikdir. Fakültədə mövcud vəziyyət, qəbul göstəriciləri, tələbələrin təşviqi və mövcud problemlər barədə fakültənin dekanı, dosent Fərəh Mədətli ətraflı məlumat verib.**

# Əczaçı yalnız aptekdə dərman satan deyil

## Baytarlıq əczaçılığı üzrə təhsil alanların diplomunda ixtisas kimi "əczaçı" yazılması ciddi uyğunsuzluqdur



Dekan bildirib ki, 2023-2024-cü tədris ilinə qədər fakültəyə dövlət sifarişi əsasında 60 tələbə qəbul edilirdi. Lakin ölkədə əczaçılıq sahəsinə artan tələbat, yeni dərman istehsalı müəssisələrinin açılması və işğaldan azad olunmuş ərazilərdə kadr çatışmazlığı nəzərə alınaraq, bu rəqəm 80-ə çatdırılıb.
F.Mədətli fakültənin təqdim etdiyi təhsilin yerli tələbələrlə yanaşı, əcnəbilər üçün də cəlbedici olduğunu vurğulayıb: "Tələbələrin təxminən yarısı əcnəbilərdir. Ən çoxu qardaş Türkiyədəndir. Eləcə də İran, İraq, Fələstin, Sudan, Zimbabve, Kamerun və digər ölkələrdən tələbələr təhsil alır".
Dekanın fikrincə, son illərdə fakültəyə qəbulun müəyyən qədər azalmasının səbəbi Türkiyədə ali təhsil qanunvericiliyində yeniliklər və bəzi universitet diplomlarının tanınma reytinqindəki dəyişikliklərdir. Həmçinin Azərbaycanda yalnız iki universitetdə – Azərbaycan Tibb Universiteti və Naxçıvan Dövlət Universitetində əczaçılıq ixtisasının mövcud olmasına baxmayaraq, Gəncə Aqrar Universitetində baytarlıq əczaçılığı üzrə təhsil alanların da məzun olarkən diplomlarında ixtisas kimi "əczaçı" yazılması ciddi uyğunsuzluqdur: "Bu daha aşağı qəbul balı və az təhsil xərci ilə magistraturaya daxil olanların ədalətsiz üstünlüyü deməkdir. Bu məsələnin araşdırılması və boşluqların aradan qaldırılması vacibdir".
Fərəh xanım onu da bildirib ki, qanunvericiliyə əsasən, aptek və əczaçılıq sahələrində yalnız ali təhsilli əczaçıların çalışması tələb olunsa da, praktik icrada bu norma tez-tez pozulur. "Rəsmi əczaçı adı altında qeyri-mütəxəssislərin çalışması ciddi problemdir və bu sahədə nəzarətin gücləndirilməsinə ehtiyac var" – deyə o vurğulayıb.
Abituriyentlərin fakültəyə təşviqi məsələsinə gəldikdə isə, bu məqsədlə müxtəlif maarifləndirici və tanıtım tədbirləri həyata keçirilir: "Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi ixtisas seçimi sərgilərində iştirak edirik. Valideynlərə və abituriyentlərə fakültə haqqında ətraflı məlumat verilir, buklet və təqdimatlar paylanır. Həmçinin orta məktəb və kolleclərdə təqdimatların keçirilməsi üçün işçi qruplarıformalaşdırılır".
Fakültənin təşviq strategiyasının əsas istiqamətlərindən biri də uğurlu məzunların timsalında akademik və praktik potensialın nümayişidir: "Handbook – məlumat kitabçamızda yalnız tədris prosesi və karyera imkanları yox, həm də ən uğurlu məzunlarımızın hekayələrinə geniş yer ayrılıb. Bu hekayələr əczaçı olmaq istəyən gənclər üçün real motivasiya mənbəyidir".
O cümlədən məzunlarla hazırlanan 20-30 saniyəlik qısa videoçarxlar onların nailiyyətlərini, fakültədə qazandıqları bilikləri karyeralarındakı rolunu və gənclərə tövsiyələrini əks etdirir. Bu isə fakültənin imicinin formalaşmasında, ixtisasın cəlbediciliyinin artırılmasında və tələbələrin gələcəyə inamının möhkəmləndirilməsində mühüm rol oynayır.
Dekan vurğulayıb ki, Əczaçılıq fakültəsi yalnız aptek fəaliyyəti ilə məhdudlaşmayan, geniş və çoxşaxəli karyera imkanları təqdim edir: "Çoxlarımız elə bilirik ki, fakültəni bitirənlər yalnız apteklərdə dərman satışı ilə məşğul ola bilər. Halbuki, bu ixtisasa yiyələnənlər müxtəlif sahələrdə, məsələn, əczaçılıq zavodlarında, elmi-tədqiqat laboratoriyalarında, analitik-ekspertiza mərkəzlərində, Səhiyyə Nazirliyinin və TƏBİB-in qurumlarında, İcbari Tibbi Sığorta Agentliyində, xəstəxanaların farmakonəzarət şöbələrində, Qida Təhlükəsizliyi Agentliyində və digər müvafiq yerlərdə fəaliyyət göstərirlər".
F.Mədətli sonda qeyd edib ki, mövcud problemlərin qanuni şəkildə həlli, düzgün maarifləndirmə və effektiv təşviq mexanizmləri sayəsində bu sahəyə marağın daha da artacağına inam böyükdür.

**Qabil ABDULLAYEV**

# Simulyasion pasiyent modelini icra edən tələbələrlə görüş keçirilib



Təcili tibb kafedrasında Obyektiv Strukturlaşdırılmış Klinik İmtahanın (OSKİ) yeni formatının tətbiqi ilə əlaqədar simulyasion pasiyent modelini icra edən tələbələrlə müzakirə görüşü keçirilib.
Tədbirdə kafedra müdiri, dosent Nadir Zeynalov, kafedranın əməkdaşları, həmçinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən "Həyat" teatr klubunun üzvləri iştirak ediblər.
Görüş zamanı kafedra müdiri tələbələrlə yaxından tanış olub, gələcək planları ilə maraqlanıb. Eyni zamanda Təcili tibb kafedrasında keçirilən OSKİ imtahanlarının təşkili, imtahan prosesində keyfiyyətin daha da artırılması və mövcud uyğunsuzluqların aradan qaldırılması istiqamətində tələbələrin fikir və təklifləri dinlənilib. Qeyd olunub ki, səsləndirilən bütün təkliflər qeydə alınıb və gələcək fəaliyyətlərdə nəzərə alınacaq.
Sonda teatr klubunun 10 tələbəsi II Müalicə-profilaktika fakültəsinin VI kurs tələbələri üçün OSKİ imtahanının yeni formatda təşkilində fəal iştirak etdiklərinə görə kafedra tərəfindən təşəkkürnamə və hədiyyələrlə təltif olunub.

**Universitetimizdə təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə son illər bir sıra innovativ islahatlar həyata keçirilir. Bu istiqamətdə mühüm addımlardan biri də müəllimlərin peşəkar inkişafına xidmət edən "nümunəvi dərs"lərin təşkilidir.**

# "Nümunəvi dərs"lər mühüm əhəmiyyətə malikdir



"Nümunəvi dərs"lər kafedralarda professor-müəllim heyətinin iştirakı ilə təşkil olunaraq, növbəti semestr üzrə təqvim-mövzu planına əsasən tədrisi nəzərdə tutulan dərslərin müzakirəsini və həmin mövzulara uyğun praktik işlərin icrasını əhatə edir. Bu yanaşma müəllimlərin ixtisas səviyyəsinin yüksəldilməsinə, xüsusilə gənc müəllimlərin pedaqoji bacarıqlarının inkişafına mühüm töhfə verir.
Belə dərslərdən biri bu günlərdə Əczaçılıq kimyası kafedrasında baş tutub, "Əczaçılıq kimyası" fənni üzrə 2025/2026-cı tədris ilinin yaz semestrinin birinci dərsi müzakirə olunub. Mövzu ilə bağlı kafedranın dosenti Fuad Məmmədov geniş məlumat verib. Qeyd olunub ki, kafedra müdirinin təklifinə əsasən, müzakirələr sadə təqdimat formasında deyil, interaktiv və müzakirə formatında aparılıb.
Müzakirələr zamanı kafedranın əməkdaşları - professor Cəmilə Yusifova, dosent Vaqif İskəndərov, baş müəllim Emiliya Balayeva və digər müəllimlər mövzuya dair əsas məqamlarla bağlı fikirlərini bölüşüblər. "Nümunəvi dərs"də Dostu Qafarova və Tahirə Hacıbəyli də fəal iştirak ediblər.
Yekunda kafedranın müdiri, professor Tahir Süleymanov dərslə bağlı fikirlərini səsləndirib. O, F.Məmmədovun mövzunu ətraflı şəkildə izah etdiyini bildirməklə yanaşı, izahlar zamanı praktik təcrübədən nümunələrə daha çox yer verilməsinin vacibliyini vurğulayıb. Bildirib ki, tələbələrin kafedraya gəldiyi ilk gündən onlarda fənnə marağın yaradılması və mövzuların daha yaxşı mənimsənilməsi baxımından praktik faktlarla zəngin izahlar mühüm əhəmiyyət daşıyır.
Qeyd edək ki, "nümunəvi dərs"lərin əhəmiyyəti nəzərə alınaraq, fevral ayının 15-dək digər mövzular üzrə də bu cür dərslərin keçirilməsi planlaşdırılır.

# Qış imtahan sessiyası: şəffaflıq təmin olunur

## Cari imtahan sessiyasında mikroqurğudan istifadə faktı qeydə alınıb



**Azərbaycan Tibb Universitetində (ATU) 2025/2026-cı tədris ilinin payız semestrinin qış imtahan sessiyası uğurla davam edir. İmtahan prosesinin gedişi ilə tanış olmaq məqsədilə İnformasiya Texnologiyaları Departamentinin İmtahan şöbəsində olduq, imtahan zallarını izlədik, məsul şəxslər, nəzarətçilər və tələbələrlə söhbətləşdik.**

Şöbənin müdiri Cəmilə Quliyeva bildirdi ki, qış imtahan sessiyası əvvəlcədən təsdiqlənmiş cədvələ uyğun şəkildə təşkil olunub və proses tələbələrin biliklərinin obyektiv qiymətləndirilməsinə xidmət edir.

Onun sözlərinə görə, qiymətləndirmə prosesinin şəffaf və ədalətli aparılmasında İmtahan şöbəsinin rolu xüsusi əhəmiyyət daşıyır: “Şöbənin səmərəli fəaliyyəti burada çalışan əməkdaşların peşəkarlığı, məsuliyyəti və yüksək təşkilatçılıq bacarıqları ilə birbaşa bağlıdır”.

C.Quliyeva qeyd etdi ki, şöbənin əməkdaşları imtahanların hazırlanması, keçirilməsi və nəticələrin təhlili mərhələlərində mühüm funksiyalar yerinə yetirirlər. Xüsusilə test suallarının yoxlanılması və ekspertizadan keçirilməsi prosesində mütəxəssislər sualların tədris proqramlarına uyğunluğuna ciddi nəzarət edirlər. Onun fikrincə, bu yanaşma imtahanların yüksək səviyyədə təşkilinə və ümumilikdə təhsilin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir.

Nəzarət qrupunun rəhbəri Ziyadxan Abdullayev isə imtahan prosesinə nəzarət mexanizmləri və aşkarlanan qayda pozuntuları barədə məlumat verdi. Bildirdi ki, cari imtahan sessiyasında mikroqurğudan istifadə faktı qeydə alınıb: “Qurğu qulaq daxilinə yerləşdirildiyi üçün ilkin vizual yoxlama zamanı aşkarlanmamışdı. Lakin nəzarətçilərin ayıq-sayıqlığı nəticəsində fakt müəyyən olundu, təqdimat yazıldı, tələbənin cavabları sıfırlandı və o, imtahandan kənarlaşdırıldı”.

Onun sözlərinə görə, hansısa şübhə yarandıqda əlavə yoxlamalar aparılır, imtahan başa çatdıqdan sonra videogörüntülər yenidən izlənilir. Qayda pozuntusu təsdiqlənərsə, tələbənin imtahan nəticəsi ləğv edilir və barəsində rəsmi təqdimat hazırlanır. Z.Abdullayev əlavə etdi



ki, imtahanlarda nəzarətçi heyəti kifayət qədər genişdir: yuxarı zallarda 5, aşağı zallarda isə 8 nəzarətçi fəaliyyət göstərir. Ümumilikdə hər gün 13 nəzarətçi növbəli şəkildə çalışır. İmtahanlar səhər saat 8-dən başlayaraq günorta və axşam növbələri ilə, bəzi hallarda saat 19:30-a qədər davam edir.



Nəzarətçi Vəfa Həsənova da imtahan prosesinin normal və qaydalara uyğun keçdiyini bildirdi. O, növbədə olduğu müddətdə hər hansı qayda pozuntusunun qeydə alınmadığını diqqətə çatdırdı.

Həmsöhbət olduğumuz tələbələr imtahanların təşkili ilə bağlı müsbət fikirlər səsləndirdilər. I MPF IV kurs tələbəsi Mahsa Palar “Oftalmologiya” fənnindən imtahandan çıxırdı: “İmtahan olduqca uğurlu keçdi. Suallar aydın, məzmunlu və keçilən mövzulara tam uyğun idi. Bu da biliklərimizin obyektiv qiymətləndirilməsinə imkan verdi. İmtahan prosesi rahat və şəffaf şəraitdə təşkil olunmuşdu, heç bir texniki problemlə qarşılaşmadıq”. Eyni fəndən imtahan verən tələbə yoldaşı Qiyas Vəliyev də yaradılan şəraitdən razılığını ifadə etdi.

I MPF V kurs tələbəsi Fatimə İsmayıllı isə “Allerqologiya və immunologiya” fənnindən imtahan verdiyini deyərək sualların keçirilən dərslərə uyğun tərtib olunduğunu və imtahan prosesində şəffaflığın təmin edildiyini bildirdi.

İmtahan zallarına qanunsuz yolla texniki qurğuların keçirilməsinin qarşısının alınmasında mühafizəçilərin də rolu böyükdür. Mühafizəçilər Talıb Hacızadə və Simuzər Salahova imtahan zalına daxil olan tələbələrin üzərində yoxlanış aparır, telefon, qol saatı və digər qadağan olunmuş vasitələrin içəri keçirilməsinə imkan vermirlər.

İmtahanların şəffaf keçirilməsinə xidmət edən daha bir mərhələ Apellyasiya Komissiyası ilə bağlıdır. Komissiyanın sədr müavini Gülnarə Vahabova bildirdi ki, imtahan nəticələri ilə bağlı narazılığı olan tələbələr rəsmi qaydada komissiyaya müraciət yazırlar. Hər bir müraciət diqqətlə araşdırılır, cavablar təhlil olunur və zərurət olduqda qiymətlərə düzəliş edilir: “Əvvəlki illərlə müqayisədə şikayətlərin sayı azalıb və daxil olan müraciətlərin böyük əksəriyyəti əsassız sayılır. Lakin tələbənin iddiası sübuta yetirilərsə, onun qiyməti bərpa olunur”. G.Vahabova onu da qeyd etdi ki, bəzən imtahan suallarının mövzuya uyğun olmaması və ya proqramda keçilməyən mövzuların testlərə salınması kimi hallara rast gəlinir. Gələcəkdə bu cür nöqsanların aradan qaldırılması üçün müvafiq kafedralar tərəfindən lazımi tədbirlər görülməlidir.

**Q.ABDULLAYEV**



**Radiologiya kafedrasında ingilis dilində dərs aparan müəllimlər üçün təcrübə dərslərinə başlanılıb. Bu təşəbbüs tədris prosesində beynəlxalq standartlara uyğunlaşmanın gücləndirilməsinə və təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.**

# Radiologiya kafedrasında təcrübə dərslərinə start verilib

Təcrübə dərslərinin əsas məqsədi müəllimlərin ingilis dilində akademik və peşəkar ünsiyyət bacarıqlarının inkişaf etdirilməsidir. Dərslər zamanı müasir radioloji terminologiyanın düzgün və məqsədyönlü istifadəsinə xüsusi diqqət yetirilir.

Proqram çərçivəsində interaktiv tədris metodlarından və klinik nümunələrdən geniş istifadə olunur ki, bu da tələbələrin fənni daha dərindən və praktik şəkildə mənimsəməsinə şərait yaradır. Eyni zamanda müəllimlərin pedaqoji və metodiki bacarıqlarının təkmilləşdirilməsi layihənin əsas prioritetləri sırasında yer alır.

Keçirilən təcrübə dərsləri bilik və təcrübə mübadiləsi üçün əlverişli akademik mühit formalaşdırmaqla yanaşı, radiologiya sahəsində təhsilin keyfiyyətinin artırılmasına mühüm töhfə verir. Gözlənilir ki, bu proses gələcəkdə beynəlxalq əməkdaşlıq imkanlarının genişlənməsinə də zəmin yaradacaq.




# TEC-in növbəti iclasında 19 tələbə məruzələrlə çıxış edib

Tələbə Elmi Cəmiyyətinin növbəti iclası İnsan anatomiyası və tibbi terminologiya kafedrasında keçirilib. Tədbir zamanı 19 tələbə müxtəlif elmi mövzular üzrə məruzələrlə çıxış edib. Təqdim olunan mövzular aktual xarakter daşıyıb və klinik anatomiyaya birbaşa çıxışı olan tədqiqatlar xüsusi diqqət çəkib. Tələbələr tədqiqatlarında müasir üsullardan – maqnit-rezonans tomoqrafiyası (MRT), kompüter tomoqrafiyası (KT), rentgen panorama və ultrasəs müayinəsindən (USM) istifadə etməklə yanaşı, klassik təşrih metodlarına da üz tutublar. Bu yanaşma elmi nəticələrin həm ənənəvi, həm də müasir metodların inteqrasiyası əsasında əldə olunmasına şərait yaradıb.

Çıxışların hazırlanmasında elmi rəhbərlərin rolu xüsusi vurğulanıb. Professor, dosent, baş müəllim və assistentlərin mövzuların seçilməsi, metodoloji yanaşma və nəticələrin elmi əsaslarla təqdim olunmasına verdikləri dəstək tələbələrin elmi çıxışlarının keyfiyyətinin yüksəlməsində mühüm rol oynayıb.

Tələbələr nəticələrin elmi əsaslandırılmasında statistik hesablamalardan geniş istifadə edərək korrelyasiya və müqayisə metodları ilə göstəriciləri təhlil ediblər. Bu isə onların analitik düşünmə bacarıqlarını ortaya qoymaqla, təqdimatların elmi dəyərini artırıb.

İclasın gedişində məruzələr komissiya üzvləri tərəfindən qiymətləndirilib, tələbələrin elmi fəaliyyətinə yüksək dəyər verilib. Tədbirin sonunda İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, dosent Anar Abdullayev fəal tələbələrə sertifikatlar verib.

Qeyd edək ki, keçirilən iclas tələbələrin elmi potensialının üzə çıxarılması, klassik və müasir tədqiqat metodlarının birgə tətbiqi, statistik yanaşmaların təşviqi və klinik praktikaya yönəlmiş elmi araşdırmaların inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

**III Daxili xəstəliklər kafedrasında 6-cı kurs tələbələri üçün ilk dəfə olaraq “Clinical case” formatında imtahan keçirilib. Yeni imtahan modeli tələbələrin nəzəri biliklərlə yanaşı, klinik düşünmə, diaqnostik yanaşma və qərarvermə bacarıqlarının qiymətləndirilməsini hədəfləyib.**

# İlk dəfə “Clinical case” formatında imtahan keçirilib



İmtahan Tədris Terapevtik Klinikada revmatologiya və qastroenterologiya ixtisasları üzrə təşkil olunub.

Yeni formatın tətbiqi tibb təhsilində müasir beynəlxalq standartlara uyğunlaşma, praktik biliklərin gücləndirilməsi və gələcək həkimlərin peşəkar hazırlıq səviyyəsinin artırılması məqsədi daşıyır. Kafedra rəhbərliyi və müəllim heyəti bu cür imtahan modelinin tələbələrin klinik hazırlığına müsbət təsir göstərəcəyini vurğulayıb.

# Mürəkkəb cərrahi əməliyyat icra olunub

**Tədris Cərrahiyyə Klinikasında qulaqdibi tüpürcək vəzində rast gəlinən xoşxassəli şişlərin cərrahi müalicəsi üzrə mürəkkəb əməliyyat həyata keçirilib.**



Əməliyyat Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimovun rəhbərliyi ilə icra olunub. Bildirilib ki, bu əməliyyat 5-ci kurs tələbələrinin tədris proqramına daxildir və təhsil məqsədilə əməliyyatda tələbələrin iştirakı da təmin edilib.

Professorun sözlərinə görə, əməliyyat kifayət qədər mürəkkəbdir və şişin çıxarılması zamanı üz sinirinin şaxələrinin qorunması xüsusi diqqət tələb edir. Bu cür müdaxilələrin aparılması üçün xüsusi tibbi avadanlıqların olması vacibdir.

Klinikada mövcud olan müasir maddi-texniki baza mürəkkəb cərrahi əməliyyatların uğurla icra olunmasına imkan yaradır. Bu isə həm xəstələrin effektiv müalicəsi, həm də tələbələrin praktik bilik və bacarıqlarının artırılmasında mühüm rol oynayır.

# Uşaqlar arasında yayılan virus: mütəxəssisdən xəbərdarlıq

## Professor Nailə Sultanova: İnfluenza A virusu uşaqlarda ciddi fəsadlara səbəb ola bilər

**Hazırda qızdırma ilə başlayan və uzun müddət davam edən virus infeksiyalarının yayılması müşahidə olunur. Xüsusilə uşaqlar arasında geniş yayılan bu hallar valideynlərdə ciddi narahatlıq doğurur. Mövzu ilə bağlı daha ətraflı məlumat əldə etmək üçün II Uşaq xəstəlikləri kafedrasının müdiri, tibb elmləri doktoru, professor Nailə Sultanova ilə əlaqə saxladıq.**

Nailə xanımın sözlərinə görə, son aylarda uşaqlar arasında geniş yayılan mövsümi qrip hallarının əsas törədicisi İnfluenza A virusudur. Bu virus yüksək yoluxuculuq xüsusiyyətinə malikdir və əsasən hava-damcı, eləcə də birbaşa təmas yolu ilə yayılır. Mütəxəssis bildirib ki, uşaqlar arasında virusun yayılma intensivliyinin yüksək olması onlarda immun sisteminin tam formalaşmaması və gigiyenik vərdişlərə riayət edilməsinin yetərsizliyi ilə əlaqəlidir. Sosial təmasların sıxlığı, yəni məktəb, bağça virusun sürətli transmissiyası üçün əlverişli mühit yaradır: "Əgər uşaq xəstədirsə, mütləq izolyasiya olunmalı və evdə qalmalıdır. Xəstə halda kollektivə daxil olmaq yolverilməzdir".

Professor bildirdi ki, İnfluenza A virusu hər yaş dövründə rast gəlinən xəstəlik olsa da, xəstəliyin klinik gedişi uşağın yaşından və immun statusundan asılı olaraq dəyişir. Xüsusilə risk qrupuna daxil olan - xroniki xəstəlikləri, premorbit fonu olan, yəni anemiyadan (qanazlığından), hipotrofiyadan və s. xəstəliklərdən əziyyət çəkən uşaqlarda xəstəlik daha ağır keçir və qısa müddətdə fəsadlarla nəticələnir.



Mütəxəssisin sözlərinə görə, klinik olaraq xəstəliyin inkubasiya dövrü adətən 3-4 gün davam edir, sonrakı mərhələdə isə əlamətlər kəskin başlayır: "İlk simptom intoksikasiya əlamətləridir ki, bu da 39-40 dərəcəyə qədər yüksələn qızdırma ilə müşayiət olunur. Bəzi hallarda dərman müdaxiləsinə baxmayaraq, hərarət uzun müddət yüksək qala bilər. Bundan əlavə, uşaqlarda halsızlıq, baş, əzələ və oynaq ağrıları, göz qapaqlarında ağrılar müşahidə edilir".

Sonrakı mərhələdə respirator əlamətlər - öskürək, faringit, laringit, traxeit və disfoniya (səsin xırıltılı olması) meydana çıxır. Digər qriplərdən fərqli olaraq bu qripdə rinoreya (burundan seliyin axması) olmur, olduqda da minimal xarakter daşıyır.

Eləcə də uşaqlarda immun sisteminin, xüsusilə yerli immunitetin (sekretor immunoqlobulin A) yaşa uyğun olaraq tam formalaşmaması səbəbindən qastrointestinal simptomlar: ürəkbulanma, qusma və ishal kimi əlamətlər də bu xəstəlik fonunda müşahidə edilir.

Mütəxəssis xəstəliyin ilk əlamətləri göründükdə, valideynləri vaxt itirmədən həkimə müraciət etməyə çağırır: "Ev şəraitində həkim təyinatı olmadan və ya telefonla alınan tövsiyələr əsasında müalicə aparmaq doğru deyil və xəstəliyin ağırlaşmalarına gətirib çıxara bilər. Yanlış müalicə pnevmoniya (sətəlcəm), bronxit, otit (qulaq iltihabı), sinusit, nevroloji ağırlaşmalar (qıcolma, ensefalopatiya və s.) kimi ciddi fəsadlara yol aça bilər".

N.Sultanova valideynlərin tez-tez yol verdiyi səhvlərdən birinə də diqqət çəkdi: "Başqa bir uşağa təyin edilmiş müalicəni öz uşağına tətbiq etmək yolverilməzdir. Hər bir uşağın orqanizmi fərdidir və dərmanların dozaları uşaqların çəkisinə, yaşına və xəstəliyin ağırlıq dərəcəsinə uyğun müəyyənləşdirilməlidir".

Onun sözlərinə görə, xəstəliyin yüngül formalarında müalicə, əsasən simptomatik və dəstəkləyici istiqamətdə aparılır. Orta ağırlıqda və xüsusən risk qrupundan olan uşaqlarda xəstəliyin ilk 48 saatı ərzində antiviral preparatların (simptomatik və dəstəkləyici müalicə ilə yanaşı) da tətbiq olunması məsləhətdir. Ağır klinik gedişdə antiviral preparatlar davam etdirilməli, damardaxili maye balansı korreksiya edilməli, elektrolitlərin monitorinqi aparılmalıdır. Ağırlaşmalar müşahidə edildikdə intensiv terapiya dəstəyi, saturasiya (orqanizmin oksigenlə təminatı) səviyyəsi (SpO < 92%) aşağı olduqda isə, oksigen terapiyası aparılır.

Professor sonda qeyd etdi ki, qripdən qorunmanın ən effektiv yolu gigiyena qaydalarına əməl etmək və peyvəndlənməkdir. Qrip virusları hər il mutasiyaya uğradığı üçün daim yeni ştamlar formalaşır ki, onlara qarşı orqanizmdə dayanıqlı immunitet yaratmaq mümkün deyil. Məsələn, əgər uşaq cari ildə qripə yoluxubsa, bu o demək deyil ki, virusun başqa ştammı ilə qarşılaşsa, vəziyyət təkrarlanmayacaq. Ona görə də qrip əleyhinə peyvəndləməni hər il aparmaq lazım gəlir. Valideynlər onu da nəzərə almalıdır ki, uşağa peyvənd vurulduqdan yalnız 12-14 gün sonra orqanizmdə antitellər (anticisimlər) formalaşır.

**A.ƏSƏDOVA**

# Kontrast nefropatiyası müzakirəyə çıxarılıb



Tədris Terapevtik Klinikada rezidentlər üçün "Kontrast nefropatiyasına müasir yanaşmalar" mövzusunda növbəti elmi seminar keçirilib.

Rezidentura və magistratura şöbəsi ilə klinikanın Nefrologiya şöbəsinin birgə təşkilatçılığı ilə baş tutan tədbiri giriş sözü ilə assistent Namiq Xəlilov açıb. O, rezidentlərin davamiyyəti və davamlı tibbi təhsilin əhəmiyyəti barədə məlumat verərək, mövzunun aktuallığını vurğulayıb. Radioloji və invaziv radioloji prosedurların sürətli inkişafına rəğmən, kontrast maddələrin istifadəsi nəticəsində yaranan kəskin böyrək zədələnmələri və dializə müraciətlərin artdığını diqqətə çatdırıb.

Sonra Nefrologiya şöbəsinin müdiri, professor Aytən Məmmədzadə geniş məruzə ilə çıxış edib. Professor həm klinikanın hemodializ şöbəsinə, həm də ölkənin aparıcı dializ mərkəzlərinə kontrast maddələrlə bağlı kəskin böyrək zədələnməsi səbəbindən müraciətlərin artdığını bildirib. Məruzə zamanı kontrast nefropatiyasının patogenetik əsasları, yenilənmiş klinik protokollar, risk hesablanma cədvəlləri və müasir müalicə strategiyaları ətraflı izah olunub.

A.Məmmədzadə, həmçinin yerli və beynəlxalq təcrübədə rast gəlinən maraqlı klinik halları (case-ləri) iştirakçılarla bölüşərək, böyrək zədələnməsi olan və olmayan, funksional testlərdə dəyişiklik qeydə alınan və tam sağlam pasiyentlərə yanaşma prinsipləri, eləcə də hemodializ və konservativ müalicə üsullarından bəhs edib.

Seminarın yekununda mövzu ətrafında geniş müzakirələr aparılıb. Klinikanın baş həkimi Fəridə Hacıyeva, dosent Səbinə Məşədiyeva-Bayramova, assistent Könül İsmayılova və dosent Türkan Kərimova müzakirələrə qatılaraq kontrast nefropatiyasına nefroloqlar və digər ixtisas həkimlərinin yanaşmaları, həmçinin gələcək elmi araşdırmalar barədə fikirlərini bölüşüblər.

Rezidentlərdən İbrahim İbrahimov, Arifşah Quliyev, Sədi Bulud və Mark Simanduyev mövzuya toxunaraq suallar ünvanlayıblar.

# Rezidentlər məruzə oxuyub

Ortopedik stomatologiya kafedrasında rezidentlərin iştirakı ilə seminar təşkil edilib.

Tədbir çərçivəsində III kurs rezidenti Səbinə Rüstəmli "Dişlərin preparasiyası və müvəqqəti qapaqların bioloji inteqrasiyası", III kurs rezidenti Mahir Buludov isə "Ortopedik müalicədə parodontoloji müdaxilələr" mövzularında məruzələrlə çıxış ediblər. Rezidentlər təqdimatlarını həm şəxsi klinik təcrübələrinə, həm də dünyaca məşhur ortoped həkim Mauro Fradeaninin elmi tədqiqatlarına əsaslanaraq hazırlayıblar.



Məruzələr iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb, seminar isə geniş müzakirə formatında davam edib.

**Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında Klinik- diaqnostik laboratoriya və Rezidentura və magistratura şöbəsinin birgə təşkilatçılığı ilə rezidentlər üçün "Qadın və kişi urogenital sisteminin normal və patoloji florası: mikrobioloji diaqnostikaya müasir yanaşma" mövzusunda növbəti elmi seminar keçirilib.**

# Növbəti seminar urogenital sistemin florasına həsr olunub



Tədbiri giriş sözü ilə açan Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov bildirib ki, seminarın əsas məqsədi rezidentlər və gənc mütəxəssislər üçün normal flora ilə patoloji dəyişiklikləri ayırd etmə bacarıqlarının gücləndirilməsi, klinik hallara laborator nəticələr prizmasından düzgün yanaşmanın formalaşdırılması və sübutlara əsaslanan diaqnostik qərarların əhəmiyyətinin izah edilməsidir.

N.Xəlilov urogenital sistemin normal florasının əsasən turş mühit yaradaraq patogenlərdən qoruyan Lactobacillus (Döderlein çöpləri) cinsindən ibarət olduğunu, patoloji floranın isə Gardnerella vaginalis, Candida növləri, Trichomonas vaginalis, eləcə də zöhrəvi infeksiyalar (xlamidiya, qonokokk və s.) ilə xarakterizə olunduğunu və disbakteriozla iltihabi proseslərə səbəb olduğunu diqqətə çatdırıb.

Daha sonra adıçəkilən laboratoriyanın müdiri, həkim-mikrobioloq Leyla Həşimova geniş məruzə ilə çıxış edib. Məruzə zamanı qadın və kişi urogenital sisteminin normal mikroflorası, floranın yaş və hormonal statusdan asılı olaraq dinamik dəyişiklikləri, kolonizasiya və infeksiya anlayışları arasındakı fərqlər, həmçinin bakterial vaginoz, vulvovaginal kandidoz və trixomoniaz kimi ən çox rast gələnən patologiyaların mikrobioloji xüsusiyyətləri ətraflı izah olunub.

Bundan əlavə, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) cinsi yolla yoluxan infeksiyalarla bağlı aktual statistik məlumatları təqdim olunub, müasir laborator diaqnostika üsulları - Qram boyalı preparat, Nugent skorlaması, nativ mikroskopiya, kultivasiya və NAAT (PCR) metodlarının klinik əhəmiyyəti vurğulanıb.

Tədbir çərçivəsində laboratoriyada aparılmış retrospektiv tədqiqatın nəticələri də iştirakçılara təqdim olunub. Belə ki, 1075 qadından götürülmüş nümunələrin təhlili nəticəsində Candida spp. - 24,1%, Gardnerella vaginalis - 11,5%, Trichomonas vaginalisin - 0,65% hallarda aşkar edildiyi bildirilib.

Seminarın müzakirə hissəsində II Mamalıq və ginekologiya kafedrasının dosenti Səfa Bağırova, tibb üzrə fəlsəfə doktorları Pərvanə Əliyeva və Lamiyə Ağakişiyeva çıxış edərək klinik təcrübədə rast gələnən hallar, fərqli yanaşmalar və gələcək elmi araşdırmalar barədə fikirlərini bölüşüblər. İnteraktiv formatda davam edən seminarda rezidentlər üçün xüsusi hazırlanmış klinik hallar və ssenarilər vasitəsilə laborator göstəricilərin interpretasiyası və müalicəyə təsir edən əsas amillər təhlil olunub.

Seminar Tədris Cərrahiyyə Klinikasının həkim-rezidentlərinin iştirakı ilə keçirilib.

Tədbir iştirakçıların suallarının cavablandırılması ilə yekunlaşıb.

# Daha sürətli və dəqiq diaqnozlar vəd edən qeyri-invaziv metod

Bioelektrik impedans spektroskopiyasına maraq əhəmiyyətli dərəcədə artıb

**Tədqiqatlar göstərir ki, bioloji toxumalar özlərinin hüceyrə quruluşundan asılı olaraq müxtəlif passiv elektrik xassələrinə malikdir. Orqanizmdə passiv parametrlər arasında ən çox xarakterik olanı elektrik müqaviməti və ya impedansıdır. Dəyişən elektrik həyəcanlaşmasının təsiri altında bioimpedansın qiyməti toxumanın anatomiyasından, tərkibindən və siqnalın tezliyindən asılı olaraq dəyişir.**

Toxumaların elektrik impedansı tezliyi sıfır olan sabit cərəyandan başlayaraq böyük tezlikli dəyişən cərəyanın təsiri ilə monoton azalır. Dəyişmənin səbəbi isə odur ki, dəyişən elektrik sahəsinin



təsiri altında mühitin dielektrik nüfuzluğu dəyişir ki, bu da "canlı kondensatorun" tutumunu və bundan asılı olan ümumi impedansını dəyişir.

İnsan bədənində elektrik polyarlaşmasının xarici elekrik sahəsi intensivliyinin dəyişməsinə nisbətən gecikməsi polyarlaşmanın mexanizmi ilə izah olunur.

Ən böyük tezliyə (ən kiçik zaman intervalına) malik polyarlaşma elektron polyarlaşmasıdır və təcrübədə müşahidə olunan müxtəlif dispersiya (alfa, beta və qamma) oblastları həmin növə uyğun gəlir. Həmin oblastlarda impedansın tezlikdən asılı olaraq azalma tempi nisbətən yavaşıyır və impedans təqribən sabit qalır. Ən kiçik tezliklərə uyğun olan alfa dispersiya oblastında ionların diffuziyası nəticəsində bütövlükdə hüceyrənin polyarlaşması baş verir ki, bu da daha çox zaman tələb edir. Alfa oblastında membranların tutum müqaviməti böyük olduğundan, cərəyan trayektoriyaları hüceyrənin yanından əyilərək hüceyrəni əhatə edən elektrolit məhlulundan keçir. Tezliyin artması ilə (zaman intervalının bir qədər azalması ilə) böyük polyar molekullar-üzvi birləşmələrin dipolları xarici elektrik sahəsinin dəyişməsini hiss edirlər ki, bu da dispersiyanın beta oblastına uyğun gəlir. Tezliyin daha yüksək qiymətlərində isə daha kiçik kütləyə malik su molekullarının xarici sahəyə cavab reaksiyası (polyarlaşması) baş verir ki, bu da qamma dispersiya oblastına düşür. Biofiziki araşdırmalar göstərir ki, tezlik artdıqca daha az sayda struktur polyarlaşmaya məruz qalır ki, bu da polyarlaşma vektorunun ədədi qiymətinin azalması deməkdir. Nəticədə mühitin dielektrik nüfuzluğu və buna görə də elektrik tutumu azalır. Elektrik tutumu azaldıqda, tutum müqaviməti və buna görə də ümumi impedans artır. Belə artma isə yuxarıda sadalanan üç oblastda impedansın azalma tempinin zəifləməsinə uyğundur.

Elektrik impedans spektroskopiyası (EİS) hüceyrə və toxuma xarakteristikalarının monitorinqində geniş istifadə olunur. Bu metodla nümunənin tam elektrik müqavimətini (impedansını) müxtəlif tezliklərdə ölçməklə hüceyrənin ölçüsü və forması, hüceyrə membranının xassələri və ya sitoplazmanın keçiriciliyi haqqında məlumat toplamaq mümkündür. Bioimpedans ölçmələri demək olar ki, toxumaların ənənəvi analiz metodları çərçivəsindən kənara çıxır. EİS materialın geniş tezlik oblastında elektrik sahəsinə olan əks reaksiyasını ölçməklə onun elektrik və dielektrik xassələrini aşkar edir. Bioloji materialların elektrik impedansının tezlikdən asılı olaraq dəyişməsinin qeyri-invaziv öyrənilməsi üçün bioimpedans spektroskopiyası (BİS) metodundan istifadə olunur. BİS-də toxuma nümunəsini bioimpedans cəhətdən xarakterizə etmək üçün bədənə kiçik amplitudlu elektrik siqnalı daxil edilir. Bu metoda maraq həm elmi-tədqiqat, həm də klinik tətbiqlər baxımından əhəmiyyətli dərəcədə artır. Bu tədqiqatları DNA, zülallara, virus və ya bakteriyalara şamil etmək olar. Faktiki olaraq ölçülmüş impedans nəticələri toxumanın strukturu, hüceyrənin həcmi və hüceyrə membranı xassələri haqqında vacib informasiyanı təqdim edir. BİS metodu materialın elektrik xassələrinin ilkin mexanizmləri, həmçinin materialda relaksasiya prosesləri haqqında məlumat verir. Bu metod nümunələrdə impedansın həqiqi və xəyali hissələrinin tezlik asılılığını aşkar edir. Bioimpedans




ölçmələri sürətli, real vaxt intervalında, ucuz və dağıdıcı olmayan metod olmaqla hərtərəfli monitorinq üçün uyğunlaşdırıla bilər.

Elmi ədəbiyyatda bioelektrik impedans spektroskopiyası (BİS) metodunun çoxsaylı tətbiqləri, o cümlədən məməlilərin hüceyrə və toxumalarının müxtəlif tezlik domenlərində monitorinq edilməsi, DNA nanonaqillərinin şüalanma səbəbindən struktur təhrifləri nəticəsində yaranmış impedans dəyişikliklərinin ölçülməsi, smartfonla nəzarət olunan elektrokimyəvi impedans spektroskopiyası ilə zülalların qeyd olunması, xərçəng hüceyrələrinin kimyəvi maddələrə göstərdiyi elektrik müqavimətinin monitorinqi, epitel toxumalarında ölçmələr üçün EİS-ə əsaslanan kamera sisteminin dizayn edilməsi, minimum invaziv üsulla ağciyər toxumalarının təsnifatlandırılması və bu məqsədlə 3 və 4 elektrodlu metodların müqayisə edilməsi daxildir. EİS, həmçinin qalxanvari vəzin cərrahiyyəsi zamanı toxumaların əməliyyatdaxili fərqləndirilməsi, sağlam və xəstə toxumaların plastikliyinin araşdırılması, döş qəfəsi toxumalarının tədqiqi, ağciyər düyünlərinin identifikasiyası, elektrik impedansı ölçmələrindən istifadə etməklə prostat xərçənginin erkən diaqnozu, risk növlərinin müəyyənləşdirilməsi və nəticələrin proqnozlaşdırılması üçün istifadə olunur. Maqnit-rezonans metodu ilə alınmış nəticələr və ya atom güc mikroskopu (AFM) ilə hüceyrə görüntüləməsini təhlil etməklə vektor maşın modelləri şişlərin aşağı və yüksək dərəcələrini, həmçinin xərçəngə tutulmuş və tutulmamış şişləri fərqləndirir. Bu modellər 90%-dən yüksək effektivlik nümayiş etdirir və klinikalarda daha sürətli və daha dəqiq diaqnozların qoyulmasına imkan yaradır.

İmpedansın tezlikdən asılılığı orqanizm toxumalarının həyat qabiliyyətini qiymətləndirməyə imkan verir ki, bu da orqan və toxumaların transplantasiyası üçün vacib amillərdən biridir. Sağlam və xəstə toxumaların impedansının tezlik asılılıqları fərqlidir. Orqan və toxumaların impedansı həm də orqanizmin fizioloji halından asılıdır. Diaqnoz məqsədi ilə impedansın tezlikdən asılılığı müxtəlif orqanlar üçün əldə edilə bilir. İmpedansın dispersiyasının öyrənilməsi terapevtik məqsədlərlə istifadə olunan cərəyan və elektromaqnit sahələrinin təsir mexanizmini qiymətləndirməyə imkan verir.

Bioimpedans spektroskopiyası metodu kimyəvi maddələr tələb edən histoloji metodlara alternativ rol oynayır. Bəzi tədqiqatçılar yalnız bir xammal nümunəsinin toplanması ilə toxuma növünün təsnifini verən maşın modelləri təklif ediblər. Belə strategiyalar ölçülmüş verilənləri uyğunlaşdırmağa cəhd etməklə bioimpedans təcrübələrini interpretasiya edən ənənəvi yanaşmaları tamamlayır.

**Şahmərdan Əmirov,**
*Tibbi və bioloji fizika kafedrasının dosenti, fizika elmləri doktoru*

# Tələbələrin sevimli müəllimi xatirələrdə yaşayacaq



**Epidemiologiya və biostatistika kafedrasının professoru, tibb elmləri doktoru, tanınmış alim və pedaqoq Məhərrəm Zülfüqar oğlu Niftullayev vəfat edib.**

M.Niftullayev 1947-ci il noyabrın 10-da Cəlilabad rayonunun Şərəfxanlı kəndində anadan olub. O, 1971-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) Sanitariya-gigiyena fakültəsini bitirib və 1974-cü ilə qədər Q.Musabəyov adına Elmi-Tədqiqat Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışıb. 1974-cü ildə Tibb İnstitutunun Epidemiologiya kafedrasına baş laborant vəzifəsinə qəbul edilən M.Niftullayev 1975-ci ildə kafedranın assistenti, 1982-ci ildə baş müəllimi vəzifəsinə seçilib. 1995-ci ildən ömrünün sonuna qədər kafedranın professoru vəzifəsində çalışan M.Niftullayevin elmi fəaliyyəti "Helmintozların epidemiologiyası, diaqnostikası, profilaktikası və onların üzərində epidemioloji nəzarət" mövzusuna həsr olunub. O, 100-dən artıq elmi əsərin müəllifidir. Kafedrada çalışdığı 50 il ərzində minlərlə həkim kadrlarının hazırlanmasında xüsusi xidmətləri olan professor M.Niftullayevin oxuduğu mühazirələr tələbələr tərəfindən daim yüksək qiymətləndirilib. Bir çox xarici ölkələrdə keçirilən konfranslarda elmi çıxışları maraqla qarşılanıb. Yüksək intellektual səviyyəsi, dərin elmi biliyi və pedaqoji bacarığı ilə universitetin professor-müəllim heyəti arasında böyük hörmət qazanan professor M.Niftullayev fəaliyyəti dövründə fakültənin Elmi Şurasının müvafiq problem komissiyasının, həmçinin dissertasiya şurasının üzvü kimi səmərəli fəaliyyət göstərib.

Həm də yüksək insani keyfiyyətləri ilə seçilən və daim qayğı ilə yanaşdığı tələbələrin sevimli müəllimlərindən biri kimi yadda qalan Məhərrəm müəllimin əziz xatirəsi kafedra əməkdaşlarının, tələbələrinin və onu tanıyanların qəlbində daim yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Epidemiologiya və biostatistika kafedrasının əməkdaşları**

# Tələbəmizin məqaləsi beynəlxalq indeksli jurnalda dərc olunub



Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Səma Nəsibli və onun elmi rəhbərləri - Tibbi mikrobiologiya və immunologiya kafedrasının dosenti Ramin Bayramlı, həmçinin İNCİ laboratoriyalarının mikrobiologiya üzrə mütəxəssisi Ruqiyyə Səmədzadənin həmmüəllifi olduqları "Evaluation of Rotavirus and Adenovirus Prevalence in Children Diagnosed with Acute Gastroenteritis in Baku Using Laboratory Parameters" adlı elmi məqalə Türkiyənin nüfuzlu elmi nəşrlərindən biri olan "Journal of Pediatric İnfection" jurnalında dərc olunub.

Qeyd edək ki, bu jurnal Scopus, Web of Science (WoS), Emerging Sources Citation Index (ESCI), CINAHL, Türkiye Atıf Dizini və TÜBİTAK/ULAKBİM Türk Tıp Dizini kimi beynəlxalq və milli elmi bazalarda indekslənir və Q4 kateqoriyasına daxildir (İmpact Factor: 0.2).

Məqalədə ilk dəfə olaraq Azərbaycanın pediatrik populyasiyasında rotavirus və adenovirus mənşəli kəskin qastroenteritlərin prevalansı geniş şəkildə araşdırılıb, demoqrafik göstəricilər təqdim edilib, eyni zamanda viral qastroenterit törədicilərinin digər laborator parametrlərlə əlaqəsi təhlil olunaraq beynəlxalq elmi ictimaiyyətin diqqətinə çatdırılıb.

Tələbə Səma Nəsibli bu elmi işin əsas müddəalarını Tələbə Elmi Cəmiyyətinin konfransında da təqdim edib.

# Uşaqlar üçün növbəti səyyar stomatoloji aksiya keçirilib

Əhalinin müxtəlif təbəqələri üçün stomatoloji xidmətlərin əlçatanlığının artırılması və uşaqlar arasında ağız-diş sağlamlığı ilə bağlı maarifləndirmənin gücləndirilməsi məqsədilə Tədris Stomatoloji Klinika tərəfindən təşkil olunan səyyar tibbi aksiyalar davam edir. Növbəti aksiya Evrika Montessori Kids Academy-də uğurla həyata keçirilib. Aksiya çərçivəsində klinikanın həkim kollektivi və rezidentlərinin iştirakı ilə uşaqların ilkin stomatoloji müayinələri aparılıb.

Müayinələr zamanı uşaqlarda kariyes, diş əti və ortodontik problemlərin erkən mərhələdə aşkarlanmasına xüsusi diqqət yetirilib, zəruri hallarla bağlı ilkin istiqamətlər müəyyən olunub. Eyni zamanda valideynlərə uşaqların ağız-diş sağlamlığı ilə bağlı fərdi tövsiyələr verilib, düzgün ağız gigiyenası vərdişləri barədə maarifləndirici söhbətlər aparılıb.

Gənc nəslin sağlam gələcəyinin təmin olunması məqsədilə bu kimi sosial və maarifləndirici layihələrin gələcəkdə də davam etdirilməsi planlaşdırılır.



# “Kitabxanaya gəlmək xoş bir vərdişə çevrilib”

## 24 saatlıq iş rejimi ilə fəaliyyət göstərən Əsaslı Kitabxanadan reportaj



**Əsaslı Kitabxana universitetimizin elmi-tədris mühitində mühüm rol oynayan əsas struktur bölmələrdən biridir. Kitabxananın fəaliyyəti, oxuculara göstərilən xidmətlər və yaradılan şəraitlə yaxından tanış olmaq məqsədilə kitabxananın rəhbərliyi və tələbələrlə həmsöhbət olduq.**

Müasir dövrdə dünyada yüksək elmi-texniki biliklərə malik kadrların hazırlanması, gənclərin intellektual səviyyəsinin artırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Azərbaycan səhiyyə elmi də bu gün dünya miqyasında inkişaf yolundadır. ATU-nun beynəlxalq nüfuzunun ildən-ilə artmasının bariz göstəricilərindən biri də universitetdə təhsil alan xarici tələbələrin sayının davamlı şəkildə çoxalmasıdır.

Bu prosesdə kitabxana xidməti sistemi özünəməxsus rol oynayır. Kitabxana yalnız kitab saxlanılan məkan deyil, elm, təhsil, mədəniyyət, sosial və intellektual inkişaf proseslərinə fəal təsir göstərən mühüm sosial institutdur. Son illər ölkəmizdə kitabxanalara göstərilən dövlət qayğısı bu sahədə ciddi nailiyyətlərin əldə olunmasına şərait yaradıb. Müasir kitabxanalar artıq ənənəvi formada deyil, həm də zəngin elektron arxiv və informasiya mərkəzi kimi fəaliyyət göstərir.

Kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, xidmət keyfiyyətinin yüksəldilməsi, müasir tələblərə cavab verən proqram təminatlarının tətbiqi istiqamətində mühüm addımlar atılır. Bu baxımdan Azərbaycan Tibb Universitetinin Əsaslı Kitabxanası respublikamızın ali məktəb kitabxanaları arasında əsas göstəricilərə görə qabaqcıl mövqedədir.

Hazırda mövcud beynəlxalq elektron nəşrlərin oxuculara təqdim olunması uğurla həyata keçirilir. Oxucular EBSCOhost.com beynəlxalq elektron nəşriyyatının, eləcə də digər xarici elektron bazaların resurslarından açıq şəkildə istifadə etmək imkanına malikdirlər. Bundan əlavə, 5 tədris korpusu və 4 klinikada da bu xidmətlərdən yararlanmaq mümkündür.

Əsaslı Kitabxananın direktoru Ziyafət Eminova bildirir ki, oxucuların, xüsusilə tələbələrin çoxsaylı müraciətləri nəzərə alınaraq, universitetin rektoru, professor Gəray Gəraybəyli tərəfindən kitabxananın iş rejiminin genişləndirilməsi ilə bağlı müvafiq göstəriş verilib. Onun sözlərinə görə, 2022-ci ilin may ayından etibarən Əsaslı Kitabxana həftənin 1, 3 və 5-ci günləri 24 saat, 2 və 4-cü günlər saat 09:00-dan 21:00-dək, şənbə günləri isə 09:00-dan 20:00-dək oxuculara xidmət göstərir. Bu iş rejimi tələbələrin dərsə hazırlıq və müstəqil oxu ehtiyaclarının qarşılanmasında mühüm rol oynayır.

Direktorun verdiyi məlumata görə, 2024-cü ildən Əsaslı Kitabxanada müasir tələblərə cavab verən yeni kitabxana sisteminin yaradılması istiqamətində işlər davam edirdilir.

Bu çərçivədə oxu zallarında tələbələr üçün simsiz internet şəbəkəsinin qurulması layihəsi həyata keçirilib. Hazırda tətbiq olunan Kitabxana İdarəetmə Sistemi (library.amu.az) beynəlxalq kitabxana standartlarına uyğun şəkildə təkmilləşdirilir və tələbə-müəllim heyətinin informasiya resurslarına çıxışını xeyli asanlaşdırır. Yeni yaradılacaq sistem kitabxanada aparılan işlərin səmərəliliyini artırmaqla yanaşı, fondun etibarlı mühafizəsini və geniş oxucu kontingenti tərəfindən daha effektiv istifadəsini təmin edəcək.

Hazırda kitabxana fondu 633 993 nüsxə ədəbiyyatdan ibarətdir və 13 608 oxucuya xidmət göstərir. Onların 11 202 nəfəri tələbələrdir. Universitet rəhbərliyi tədris prosesinin keyfiyyətli təşkili üçün tələbələri bütün fənlər üzrə zəruri ədəbiyyatla təmin edir. 2025-ci ildə də tələbələrin ən çox ehtiyac duyduğu dərsliklər universitetin öz vəsaiti hesabına yenidən çap olunaraq kitabxanaya təqdim edilib ki, bu da fondun daha da zənginləşməsinə səbəb olub.

Z.Eminova, həmçinin kitabxanada çalışan nəzarətçilərin fəaliyyətinə toxunaraq, gecə növbəsində bölmə müdiri Aygün Cavadova və kitabxanaçılar Sədaqət Qurbanova ilə Dürdanə İsmayılovadan ibarət üç nəzarətçinin olduğunu nəzərə çatdırıb.

Bölmə müdiri A.Cavadova bildirir ki, kitabxanaya müraciət edənlərin böyük əksəriyyəti tələbələrdir. Onlar kitabxanadan, əsasən dərs hazırlığı və imtahanlara hazırlaşmaq məqsədilə istifadə edirlər. Eyni zamanda, kitabxananın imkanlarından məzunlar da yararlanır. Onlara universitet rəhbərliyinin icazəsi ilə kitabxanadan günün istənilən vaxtında - həm gündüz, həm də gecə saatlarında istifadə etmək imkanı yaradılıb. Xüsusilə işləyən və ailəli olan məzunlar üçün bu şərait böyük rahatlıq hesab olunur.

A.Cavadovanın sözlərinə görə, tələbələrin ən çox müraciət etdiyi kitablar və elektron resurslar tədris proqramına uyğun olaraq dəyişir. İmtahan sessiyası dövründə hansı fənn üzrə imtahan keçirilirsə, həmin fənnə aid dərslik və vəsaitlərə tələbat xeyli artır. Bəzi hallarda tələbələr qruplar halında kitabxanaya müraciət edir və eyni dərsliyə bir neçə oxucunun ehtiyac duyması müşahidə olunur ki, bu da imtahan dövrlərində oxu intensivliyinin artdığını göstərir.

Oxucuların kitabxana qaydalarına münasibəti ümumilikdə müsbət qiymətləndirilir. Tələbələr, o cümlədən xarici ölkələrdən olan oxucular mədəni davranış nümayiş etdirir, sakitliyə və ümumi qaydalara riayət edirlər. Kitabxanada rəsmi və soyuq münasibət deyil, daha çox səmimi və ailəvi mühit hökm sürür. Oxuculara anlayışla yanaşılır, onların rahatlığı üçün əlavə şərait yaradılır.

Direktor da təsdiq edir ki, kollektiv tələbələrin bütün müraciətlərinə həssaslıqla yanaşır, ehtiyac duyulan ədəbiyyatın operativ şəkildə təqdim olunmasına çalışır və oxuculara mümkün olan hər cür dəstəyi göstərir. O, kitabxana əməkdaşlarının məsuliyyətli fəaliyyəti, peşəkarlığı və oxucularla davranışından razı olduğunu qeyd edərək, formalaşmış bu komanda işinin kitabxananın səmərəli fəaliyyətində mühüm rol oynadığını vurğulayır.

Kitabxananın tələbələr üçün nə dərəcədə faydalı olduğunu müəyyənləşdirmək məqsədilə onların da fikirlərini öyrənirik.

II MPF, 223A-3b qrup tələbəsi Yeganə Babayeva kitabxanada yaradılan şəraitə görə tələbələr adından təşəkkür etmək istədiyini bildirdi: “7/24 iş rejimi bizim üçün çox böyük üstünlükdür. Kitabxana əməkdaşlarının diqqətindən və köməyindən razıyıq. Lakin imtahan dövründə oxu zallarının sayının azlığı müəyyən çətinliklər yaradır”.

II MPF, III kurs tələbəsi Samir Səfərov isə kitabxanada sakitlik və təmizliyin təmin olunduğunu, istilik şəraitinin normal olduğunu söylədi. O, bəzi texniki məsələlərə də toxunaraq oxu masalarında elektrik xətlərinin quraşdırılması və oxu zallarının sayının artırılmasının arzuolunan olduğunu qeyd etdi.

I MPF, 120A-8b qrup tələbəsi Əzizə Əliyeva oxu zallarında sakitliyə riayət olunmasını müsbət hal kimi qiymətləndirir: “6-cı kursa qədər oxu zalından daim istifadə etmişəm. Yaradılan şəraitdən və əməkdaşların münasibətindən çox razıyam. Masaların sayı artırılsa, daha da yaxşı olar”.

I MPF, 125İ-2b qrup tələbəsi Sabrina Berta dərslərdən sonra vaxtının böyük hissəsini kitabxanada keçirdiyini bildirərək göstərilən xidmətdən razılığını diqqətə çatdırdı və kitabxana əməkdaşlarına təşəkkür etdi.

I MPF, 121A-3a qrup tələbəsi Aytən Beybutova kitabxananın gecə saatlarında da fəaliyyət göstərməsini xüsusilə yüksək qiymətləndirir: “Həm gündəlik dərs hazırlığında, həm də imtahan sessiyası ərəfəsində kitabxananın xidmətindən mütəmadi istifadə edirəm və göstərilən xidmətdən tam razıyam”.

I MPF, 120A-8b qrup tələbəsi Səidə Ağamirova isə oxu zalının ona daha planlı və səmərəli çalışma imkanı yaratdığını deyir: “Səhər tezdən gəlib gec saatlara qədər burada olmaq rezidentura imtahanına hazırlaşmağımı xeyli asanlaşdırır. Kitabxanaya gəlmək artıq mənim üçün xoş bir vərdişə çevrilib”.

Beləliklə, Əsaslı Kitabxanada ardıcıl həyata keçirilən yeniliklər və tətbiq olunan müasir texnologiyalar onun fəaliyyətini daim təkmilləşdirir. Bu yanaşma kitabxananı yalnız informasiya məkanı deyil, eyni zamanda universitetin elmi potensialını gücləndirən strateji mərkəzə çevirmək amalına xidmət edir.

**Arif MƏMMƏDLİ**


Yeganə Babayeva


Samir Səfərov


Əzizə Əliyeva


Sabrina Berta


Aytən Beybutova




## Dünya çempionu olmuş kursantımız mükafatlandırılıb

Hərbi tibb fakültəsinin “Hərbi həkim” ixtisası üzrə V kurs kursantı Vüsal Seyidov 2025-ci ildə əldə etdiyi yüksək nailiyyətlərə görə Azərbaycan Karate Federasiyası tərəfindən təltif olunub.

Belə ki, o, Polşanın Putawy şəhərində karatenin Fudokan üslubu üzrə keçirilən dünya çempionatında qızıl medal qazanıb və ölkəmizi uğurla təmsil edib. Federasiyanın rəhbərliyi tərəfindən təşkil olunan “2025-ci ilin yekunları” adlı tədbirə dəvət olunan Vüsal Seyidov qiymətli hədiyyə (saat) və fəxri diplomla mükafatlandırılıb.

### Allah rəhmət eləsin!

İctimai səhiyyə fakültəsinin kollektivi Epidemiologiya və biostatistika kafedrasının professoru
**Məhərrəm Niftullayevin**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Təbib" qəzetinin kollektivi qəzetin məsul katibi Arif Məmmədliyə dayısı
**Bəndalı Bəndalıyevin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın assistenti
**Baxşəli Vəliyevin**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Əczaçılıq texnologiyası və idarəçiliyi, Farmakoqnoziya, Əczaçılıq kimyası kafedralarının əməkdaşları Farmakoqnoziya kafedrasının assistenti Nərmin Babayevaya atası
**Təyyar müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai fənlər kafedrasının əməkdaşları kafedranın laborantı Səbinə Əliyevaya əzizi
**Xoşqədəm xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi mikrobiologiya və immunologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Ramilə Bayramovaya anası
**Fəridə Aziyevanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I Cərrahi xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti
**Ədalət Rüstəmin**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları, şöbə müdiri Fərid Müseyibova əzizi
**Kamran Quliyevin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0002
Sayı 800